# HEYDƏR ƏLİYEV EKOLOJİ SİYASƏTİNDƏ TƏBİƏT VƏ CƏMİYYƏTİN HARMONİYASI

**Yetər Babaşova, Reyhan Əliyeva**

*AR ETN Y.H.Məmmədəliyev adına Neft Kimya Prosesləri İnstitutu, Bakı*
*babashovayetar@gmail.com*

*"Mən istəyirəm ki, hamınız təbiəti qoruyanlar olasınız"*
**Heydər Əliyev**

Ümummilli Lider Heydər Əliyevin əsas amalı Azərbaycan dövlətçiliyinin qorunub saxlanılması, müstəqilliyimizin əldə olunması və möhkəmləndirilməsi, ölkə ərazisində ictimai-siyasi sabitliyin və xalqımızın yüksək rifahının təmin edilməsi olmuşdur. Azərbaycan Heydər Əliyevin rəhbərliyi ilə sürətli inkişaf yolunu müəyyən etmişdir. İqtisadiyyatın bütün sahələrində hər il yüksək göstəricilər əldə olunmuş, milli-mənəvi dəyərlərin qorunması, elmin inkişafı, təbliği və tətbiqi sahəsində tarixi əhəmiyyətli mütərəqqi işlər görülmüşdür. Bütün islahatlar, xalqın rifah halının yaxşılaşması və inkişafı Azərbaycanın gələcək iqtisadi yüksəlişinin, qüdrətli müstəqil dövlətə çevrilməsinin möhkəm əsasını qoymuşdur.

Azərbaycan dövlətinin inkişafında misilsiz xidmətləri olan Ümummilli Lider Heydər Əliyevin diqqət mərkəzində olan ən mühüm məsələlərdən biri də davamlı ekoloji siyasətin aparılması olmuşdur. Ölkəmizin flora və faunasının qorunub saxlanılması və inkişaf etdirilməsi, geniş meşə zolaqlarının salınması, bu məqsədilə respublikada Şirvan, Ağgöl, İsmayıllı, Bəsitçay və s. dövlət qoruqları və yasaqlıqlarının yaradılması, iri yaşıllıq massivlərinin salınması, yeni su hövzələrinin və su kəmərlərinin hazırlanması, şəhər və rayonlarımızda nəhəng sutəmizləyici qurğuların, böyük dəryaçaların inşa edilməsi bu siyasətin əsas tərkib hissələrindən olmuşdur. Dəryaçaların və hövzələrin yaradılması bir tərəfdən əkin torpaqlarının suvarılmasına xidmət edir, digər tərəfdən, bu yerlərin təbiətinin zənginləşdirilməsinə, ekoloji balanslaşmaya, harmonik

inkişafa gətirib çıxarırdı. Ümummilli Lider Heydər Əliyevin Sərəncamlarına əsasən ekoloji prioritetləri müəyyən edən "Ətraf mühitin mühafizəsi üzrə Milli Fəaliyyət Planı" hazırlanmış, Azərbaycanda təhlükəli tullantıları utilizasiya etmək üçün poliqonlar yaradılmış, ekoloji monitorinq sistemləri qurulmuş və bütün bunların dinamik inkişaf etdirilməsi məqsədilə 2001-ci ildə ölkəmizdə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılmışdır. Ardıcıl ekoloji siyasət neft emalı və neft kimya sahələrində də özünü bariz nümayiş etdirdi. Bakıda 1994-cü ildə "Əsrin müqaviləsi" adlı tarixi əhəmiyyətli sənəd imzalandı. Müqavilədə qeyd olunan əsas müddəalarda ekoloji siyasətin məntiqi davamı olaraq, neftin çıxarılması, emalı, saxlanılması, nəqli zamanı ətraf mühitin qorunma qaydalarına ciddi riayət olunması tələbi qoyuldu.

Ümümmilli Lider Heydər Əliyevin müdrik, uzaqgörən ideyalarının və siyasətinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hal-hazırda xalqın rifahına yönəldilmiş bu strategiyaları bütün sferalarda, o cümlədən ekologiya sahəsində, neft sektorunda mükəmməl olaraq həyata keçirir. Ölkəmizdə müasir dünya standartlarına uyğun ekoloji fəaliyyət həyata keçirilir, o cümlədən alternativ enerji mənbələri, yeni içməli su ehtiyatlarının yaradılması, flora və faunanın, atmosferin çirkləndiricilərdən azad edilməsi üzrə geniş miqyaslı işlər aparılır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamına əsasən, respublikamızda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" kimi qeyd olunması qərara alınmışdır. Bununla bağlı respublikamızda bir sıra silsilə tədbirlər həyata keçirilməkdədir. Təqdirəlayiqdir ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 bu il məhz Azərbaycanda keçiriləcəkdir. Bu önəmli tədbirin ərazi bütövlüyü tam təmin olunmuş doğma vətənimiz Azərbaycanda keçirilməsi bir vətəndaş kimi bizi səmimi qəlbdən sevindirir və qürurlandırır.

Xalqımıza qələbə sevincini yaşadan, ərazi bütövlüyümüz, haqlı qələbəmiz naminə xalqın birliyini təmin edən, qələbə naminə ardıcıl cahanşümul siyasət aparan qalib qəhrəman Ali Baş Komandanımız cənab İlham Əliyevin ali fədakarlığı və qəhrəman şəhid həmvətənlərimizin, qazilərimizin şücaəti ilə qeri qaytarılan torpaqlarımızda aparılan quruculuq işlərini xüsusi fəxrlə qeyd etmək lazımdır. Azərbaycanın işğal edilmiş ərazilərinin qiymətli fauna və flora, həmçinin milli mədəni abidələri, tarixi mənbələri, yaşayış sahələri uzun müddət ərzində misli görünməmiş vandalizmə məruz qalmış və xüsusi amansızlıqla talanmışdır. Hal-hazırda işğaldan azad olunmuş ərazilərimizdə yeraltı və yerüstü sərvətlərimizin əsaslı bərpası aparılır. Azərbaycan Pespublikası Prezidentinın "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyasının hazırlanması haqqında" 2021-ci il 19 aprel tarixli Sərəncamına əsasən şəhər və kəndlərin, otuz ildən çox müddət ərzində işğal altında qalmış, sərvətləri talan olunmuş ərazilərimizin dünya standartlarına uyğun, müasir tələblər səviyyəsində bərpası geniş vüsətlə həyata keçirilir, biz bununla fərəh və qürür duyuruq.

Doğma tarixi torpaqlarını işğaldan azad edən Azərbaycan regionda ekovəziyyəti bərpa etmək üçün mühüm addımlar atmaqdadır. Qubadlı, Cəbrayıl, Füzuli, Zəngilan, Ağdam və digər rayon ərazilərində əsasən Şərq çinarı olmaqla, minlərlə müxtəlif növ ağac əkilir, palıd və digər meşə ağaclarının toxumları səpilir, ağacəkmə aksiyaları geniş davam etdirilir. İşğaldan azad olunmuş bütün ərazilər minalardan təmizlənib təhlükəsiz vəziyyətə gətirildikcə bərpa tədbirləri daha geniş davam edəcək, geniş ərazilərdə meşəbərpa tədbirləri aparılacaqdır. Biomüxtəlifliyin qorunması məqsədilə həyata keçirilən reintroduksiya layihələri çərçivəsində bu ərazilərə müxtəlif heyvan növləri buraxılır, bioresurslarının artırılması üçün su hövzələrinə minlərlə müxtəlif növ balıqlar əlavə edilir.

Azərbaycan Respublikasının Birinci Vitse-prezidenti Mehriban xanım Əliyevanın ölkəmizin dinamik inkişafı, xalqın rifahının yaxşılaşdırılması, o cümlədən ekoloji mühitin sağlamlaşdırılması, təbiətin cəmiyyət ilə harmonik inkişafı naminə həyata keçirdiyi tədbirlər vətənə yüksək xidmətin layiqli nümunəsidir. Azərbaycanın Birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü və qayğısı ilə minlərlə hektar sahədə yaşıllıqlar salınır, ekoloji yönümdə, davamlı inkişaf naminə nəinki ölkəmizdə, habelə bir sıra xarici ölkələrdə mütəmadi olaraq geniş əməli işlər aparılır və tədbirlər həyata keçirilir. Heydər Əliyev Fondunun "Hərəmiz bir ağac əkək" layihəsi Azərbaycan ekologiyasının zənginləşdirilməsində mühüm rol oynamışdır. Dahi şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə bir gündə respublikamızda 650 min ağac əkilmişdır. Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və səyi ilə həyata keçirilən bu önəmli və xeyirxah işlər ölkəmizdə ətraf mühitin sağlamlaşdırılması istiqamətində aparılan tarixi əhəmiyyətli işlərin bir daha bariz nümunəsi və Ulu Öndərimizin irsinin məntiqi davamıdır. Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın şəxsi təşəbbüsü və səyi ilə Azərbaycanın zəngin və həssas biomüxtəlifliyinin mühafizə edilməsi, yaşıllıqların artırılması, bərpası və ətraf mühit naminə geniş işlər və tədbirlər həyata keçirilir.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Akademik Y.H.Məmmədəliyev adına Neft Kimya Prosesləri İnstutunun (NKPİ) əməkdaşları olaraq elmi tədqiqatlarımızı neft kimya elminin ətraf mühit baxımından əlverişli olan prioritet istiqamətlərində aparırıq. Neft emalı və neft kimya sahəsində NKPİ-də aparılan tədqiqatlar bir sıra ekoloji problemlərin həll olunmasına yönəlmişdir. Tarixi faktdır ki, hələ zamanında görkəmli alim akademik Yusif Məmmədəliyev neft kimya və neft emalı proseslərində tullantısız texnologiyaların yaradılması, müasir tələblərə cavab verən neft məhsullarının əlverişli sintez üsulları, alternativ enerji mənbələri, xüsusən hidrogen enerjisindən istifadə olunması və s. məsələlərin elmi-praktiki əsaslarını yaratmışdı.

Tərəfimizdən aparılan tədqiqatlar "Yaşıl kimya"nın əsas müddəalarına daxil edilən və bir sıra xassələrinə görə ətraf mühit üçün zərərsiz olan ion mayeləri sahəsinə aiddir. Məlumdur ki, "Yaşıl kimya" prosesləri təhlükəli maddələrin və materialların istifadəsini və istehsalını azaldan və ya qismən aradan qaldıran, eyni zamanda bunları insan sağlamlığı və ətraf mühitə uyğunluq baxımından daha etibarlı hala gətirən davamlı inkişaf konsepsiyasıdır. "Yaşıl kimya" yanaşmasında tullantıların istehsalını, enerji və təbii resurs istifadəsini azaltmaq üçün elmi müəssisələr və sənaye sahələri üçün əsas prinsiplər müəyyən edilmişdir. NKPİ-da 2002-ci ildən etibarən hal-hazırkı dönəmə qədər ion mayeləri sahəsində geniş elmi-tədqiqat işləri aparılır. Mərhum akademik A.H.Əzizovun rəhbərliyi ilə başlanan və aparılan bu elmi tədqiqat işləri nəticəsində ion mayeləri bir sıra neft kimya proseslərində və üzvi sintezdə, o cümlədən oliqomerləşmə, polimerləşmə, efirləşmə, ekstraksiya, dekarboksilləşmə və s. proseslərdə tədqiq olunmuş və mühüm elmi nəticələr əldə edilmişdir. Elmi tədqiqatlarımız bu işlərin məntiqi davami olaraq, aromatik karbohidrogenlərin, riforminq, piroliz, katalitik krekinq proseslərindən alınan və aromatik karbohidrogenlərlə zəngin olan neft fraksiyalarının $\alpha$-olefinlər ilə ion mayeləri iştirakında (oliqo)alkilləşməsinin tədqiqinə həsr olunmuşdur. Elmi və praktiki cəhətdən səmərəli olan bu proseslər gələcəkdə birbaşa riforminq və ya digər geniş tonnajlı proseslərin qurğularında rekonstruksiya aparılmadan "Yaşıl kimya"nın müddəalarına uyğun olaraq ekoloji cəhətdən əlverişli tətbiq oluna bilər.

"Yaşıl kimya" prinsiplərinə uyğun olaraq gələcəkdə də tədqiqatlarımızı davam etdirməyə və hər zaman elm və təhsilimizin himayədarı olan Ulu Öndərimiz dahi Heydər Əliyevin irsinə layiqli töhfələr verəcəyimizə ümidvarıq. Təbiət və cəmiyyət harmoniyası ilə əbədi yaşasın və çiçəklənsin bütov AZƏRBAYCAN!